# İYUL 2017

**SOCAR Polymer MMC-nin xəbərlər bülleteni / Nömrə 7 / 2017-ci il**

**Bu buraxılışda:**




Təcrübəçilərin uğurlu səyahəti başlayır s.18



Təlim və təcrübə mükəmməlliyə aparan yoldur s.21



SOCAR Polymer bir daha sahibkarlarla görüşdü s.22




İş vaxtının itkisi olmadan
7.446.651
adam/saat işlənmişdir

310
işçi

88,2%
PP zavodu – may ayına ümumi irəliləyiş

65%
YSPE zavodu – may ayına ümumi irəliləyiş

SOCAR POLYMER

# Davamlı peşəkar inkişaf gələcəyinizin açarıdır



Hörmətli həmkarlar!

“SOCAR Polymer” bilik, bacarıq və fəaliyyət göstəricilərinin yaxşılaşdırılması istiqamətində bütün səylərə fəal dəstək verir. Peşəkar inkişaf işçilərin öz təcrübələrinin hüdudlarını genişləndirmək və hər hansı konkret sahəyə aid olan və sürətlə inkişaf edən biliklərlə ayaqlaşmaq vasitəsidir. Bu, mütəxəssis kimi yetişmək və ən yüksək keyfiyyət göstəricilərinə nail olmaq üçün mütləq mənada vacibdir. Peşəkar səviyyəni və peşəkar fəaliyyəti qoruyub saxlamaq və inkişaf etdirmək üçün ömür boyu biliklər əldə etməliyik. Bu, bizim özümüz, peşəmiz və xidmət etdiyimiz sahə qarşısında peşəkar məsuliyyətimizdir.
İşçinin biliklərinin yenilənməsini təmin edən və cari peşəkar inkişafa töhfə verən bir çox təlim tədbirləri sayəsində davamlı təhsil almaq mümkündür. Lakin əldə etdiyimiz bilikləri həmkarlarımızla bölüşməyin nə qədər əhəmiyyətli olduğunu unutmamalıyıq. Biz “biliklərin toplanmasından daha çox bilikləri paylaşmaq” mədəniyyətinə xüsusi diqqət yetirməliyik. Komandalarımızda, bir sıra müsbət səbəblərə istinad etməklə, bilikləri paylaşmaq vərdişləri aşılamalıyıq. Əvvəla, bilikləri paylaşmaq məlumatlılığı təmin edir və həmkarlarınız sizinlə eyni dəyərləri bölüşür, fikirlərinizi sözlə ifadə etməzdən əvvəl sizi başa düşür və sizinlə daha yaxşı və daha effektiv şəkildə əməkdaşlıq edirlər. İkincisi, oxşar məsələnin daha əvvəllər öhdəsindən gəlmiş şəxs bu barədə biliklərini digər qrup üzvləri ilə bölüşür və bununla cavab tədbiri həyata keçirmək üçün lazım olan vaxtı azaltmış olur və daha çevik həll yolları təmin etmiş olur. Üçüncüsü, hamı bütün komanda üzvlərinə eyni dərəcədə bəlli olan və onlar tərəfindən eyni dərəcədə qəbul edilən ən yaxşı standartlara uyğun işlədikdə, koordinasiya əhəmiyyətli dərəcədə yaxşılaşmış olur. Dördüncüsü, öz biliklərini mütəmadi şəkildə yeniləyən işçi layihə müxtəlif icra mərhələlərində irəlilədikcə öz mahiyyətini dəyişən yeni ideyaları və məqsədləri qəbul etməyə hazır olur.
Argentinalı yazıçı, beynəlxalq spiker və istedad və liderlik üzrə qlobal ekspert, həftəlik “BusinessWeek” jurnalı tərəfindən dünya iqtisadiyyatının ən nüfuzlu icraçı məsləhətçilərindən biri kimi qiymətləndirilən Claudio Fernández-Aráoz deyir: “Məsələ şirkətinizin işçilərinin və liderlərinin müvafiq bacarıqlara sahib olub-olmamasında deyil; məsələ onların yeni bacarıqlara yiyələnmək potensialına sahib olub-olmamasındadır”. Konkret qabiliyyətlərə malik olmaq sizin konkret sahədə səriştəli olmağınızı təmin edir, lakin artım mütəmadi inkişaf deməkdir. Həyatınızdakı hər bir kəsdən nə isə öyrənə bilərsiniz - bunu “əgər otaqda ən ağıllı şəxs sizsinizsə, onda yanlış otaqdasınız” deyiminə riayət edərək etdiyinizdən əmin olun.
Bir sözlə, bu mesajın mahiyyəti sizi fərdi və peşəkar inkişafla məşğul olmağa və qarşılıqlı təsir imkanlarını daha da genişləndirməyə və daha çox paylaşmağa təşviq etməyə bir çağırışdır. Böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq hər hansı uğurlu layihənin əsasında bir şey dayanır: səmərəli əməkdaşlıq!

**Fərid Cəfərov**





İyul 2017

# Tikinti sahəsindən görüntülər



# İyul ayı ərzində sahədə müşahidə olunan irəliləyiş

## YSPE zavodu

Qarışdırma silosu sahəsində dəmir-beton işləri başa çatmışdır, orqanoleptik bina/tullantı sularının təmizlənməsi qurğusu, polimerləşdirmə və ekstruziya sahələrində isə işlər davam edir. Polimerləşdirmə sahəsində metal konstruksiyaların quraşdırılması başlamış, Ekstruziya boru estakadası sahəsində isə bu işlər davam edir. Elektrik yarımstansiyası sahəsində tamamlama, fasad və İVHK işləri davam edir. Polimerləşdirmə, Ekstruziya və Əridicilərin kənarlaşdırılması/Buxar kondensatı sahələrində boru dayaqlarının quraşdırılması davam edir.

| İyun | İyul ərzində irəliləyiş | İyul |
|---|---|---|



YSPE zavodu: Qarışdırma silosu.
Dəmir-beton işləri başa çatmışdır



YSPE zavodu: Orqanoleptik bina/tullantı suların təmizlənməsi qurğusu.
Dəmir-beton işləri davam edir



| İyun | İyul ərzində irəliləyiş | İyul |
|---|---|---|



YSPE zavodu: Ekstruziya qurğusu. Dəmir-beton işləri davam edir





YSPE zavodu: Polimerləşdirmə. Dəmir-beton işləri davam edir. Metal konstruksiyaların quraşdırılması başlamışdır





YSPE zavodu: Elektrik yarımstansiyası. Tamamlama, fasad və İVHK işləri davam edir





YSPE zavodu: Polimerləşdirmə qurğusunun boru estakadası. Boru dayaqlarının quraşdırılması davam edir



| İyun | İyul ərzində irəliləyiş | İyul |
| --- | --- | --- |
|  | YSPE zavodu: Ekstruziya qurğusunun boru estakadası. Dəmir-beton işləri başa çatmışdır. Boru estakadasının dayaqlarının və metal konstruksiyaların quraşdırılması davam edir |  |
|  | YSPE zavodu: Ekstruziya qurğusunun boru estakadası. Dəmir-beton işləri başa çatmışdır. Boru estakadasının dayaqlarının və metal konstruksiyaların quraşdırılması davam edir |  |
|  | YSPE zavodu: Reaktorların boşaltma rezervuarı. Avadanlığın quraşdırılması üçün hazırlıq işləri gedir |  |

# PP zavodu, Mühəndis Şəbəkələri (MŞ) və Ümumzavod Təsərrüfatı (ÜT) sahələri

İyun ayında başlayan və ya davam edən işlər iyul ayında da davam etmişdir; aşağıdakı sahələrdə isə işlər iyul ayında başa çatmış yaxud başlamışdır.
Anbar sahəsində başa çatmış metal konstruksiyaların quraşdırılması işləri torbalama və qablaşdırma binasında davam edir.
Soyuducu qüllə, məşəlin separatoru, klapanların yerləşdiyi bina, yan axın filtri aqreqatı, xam su çəni, birləşdirici boru estakadası, boru şpalları sahələrində davam edən boruların quraşdırılması/birləşdirilməsi işləri izobutan sferik rezervuarı sahəsində yeni başlamışdır.
Klapanların yerləşdiyi binada yeni başlamış fasadların rənglənməsi işləri vahid dispetçer otağında və laboratoriya binasında artıq başa çatmışdır.
Mineralsızlaşdırılmış su çənində rəngsazlıq işləri davam edir.
Laboratoriya binasının damında izolyasiya işləri başa çatmış, İnzibati binada isə davam edir.
Soyuducu qüllə, məşəlin bacası, polimerləşdirmə bölməsi, ekstruziya binası yerləşən sahələrdə davam edən avadanlığın quraşdırılması işləri azot aqreqatı sahəsində yeni başlamışdır. Soyuducu qüllənin ventilyatorlarının quraşdırılması başa çatmışdır.
Yanğınsöndürmə nasosxanasında və izobutanın toplama hovuzu sahəsində nasosların və boruların quraşdırılması davam edir.
Azot kondensatı kompressoru stansiyasında, poroşok silosunda və qarışdırıcı silosda avadanlığın və nasosların sazlanması işləri gedir; Qarışdırıcı silosda NÖC quraşdırılması başlamışdır.
Kimyəvi maddələr və qatqılar anbarında, laboratoriyada, inzibati binada, sexdə, darvaza/nəzarət-buraxılış məntəqəsində daxili tamamlama/bəzək-düzək işləri davam edir.
Laboratoriyada İVHK işləri davam edir, inzibati binada isə həmin işlər başlamışdır.
Elektrik yarımstansiyası, birləşdiciri boru estakadaları və boru şpalları sahələrində kabellərin çəkilişi davam edir.
Cənub və qərb istiqamətində gedən daxili yolların tikintisi başlamışdır.

| İyun | İyul ərzində irəliləyiş | İyul |
|---|---|---|



PP zavodu/MŞ və ÜT: Elektrik yarımstansiyası. Şitlərin sınaqdan keçirilməsi davam edir. Kabel tavalarının quraşdırılması və kabel çəkilişi davam edir



PP zavodu/MŞ və ÜT: Vahid dispetçer otağı. Şitlərin və kabellərin quraşdırılması davam edir. Fasadın rənglənməsi başa çatmışdır



| İyun | İyul ərzində irəliləyiş | İyul |
| --- | --- | --- |
|  | PP zavodu/MŞ və ÜT: Kimyəvi maddələr və qatqılar anbarı. Tamamlama işləri davam edir |  |
|  | PP zavodu/ MŞ və ÜT: Laboratoriya. Damın izolyasiyası başa çatmışdır. Fasadın rənglənməsi başa çatmışdır. Tamamlama/ bəzək və İVHK işləri davam edir |  |
|  | PP zavodu/MŞ və ÜT: İnzibati bina. Damın izolyasiyası davam edir. Fasaddakı işlər davam edir. İVHK işləri başlamışdır |  |

| İyun | İyul ərzində irəliləyiş | İyul |
|---|---|---|
|  | PP zavodu/MŞ və ÜT: Sex. Daxili tamamlama/bəzək-düzək işləri davam edir. Sex kranının quraşdırılması başlamışdır |  |



PP zavodu/MŞ və ÜT: Torbalama və qablaşdırma binası.
Metal sütunların quraşdırılması davam edir



PP zavodu/MŞ və ÜT: Yanğınsöndürmə su hovuzları və nasosxana.
Nasosların və boruların quraşdırılması davam edir. Damda izolyasiya işləri davam edir



PP zavodu/MŞ və ÜT: Hava /Yüksək təzyiqli azot kondensatı kompressoru stansiyası, anbar və nasosxana.
Avadanlığın sazlanması və boruların vahid xətt üzrə düzəldilməsi davam edir

| İyun | İyul ərzində irəliləyiş | İyul |
|---|---|---|



PP zavodu/MŞ və ÜT: Məşəl bacasının qülləsi.
Avadanlığın və qüllənin quraşdırılması davam edir



PP zavodu/MŞ və ÜT: Klapanlar yerləşən bina. Klapanların və boruların quraşdırılması davam edir. Fasadda rəngsazlıq işləri gedir



| İyun | İyul ərzində irəliləyiş | İyul |
| --- | --- | --- |
|  | PP zavodu/MŞ və ÜT: Soyuducu qüllə. Sprinkler sisteminin quraşdırılması davam edir. Boruların və avadanlığın quraşdırılması davam edir. Ventilyatorların quraşdırılması başa çatmışdır. Kabel tavalarının quraşdırılmasına başlanmışdır |  |
|  | PP zavodu/MŞ və ÜT: Məşəl separatoru. Boruların birləşdirilməsi davam edir |  |
|  | PP zavodu/MŞ və ÜT: Yana axın filtri aqreqatı. Boruların quraşdırılması davam edir |  |

| İyun | İyul ərzində irəliləyiş | İyul |
|---|---|---|
|  | PP zavodu/MŞ və ÜT: Darvaza/ Buraxılış-nəzarət məntəqəsi. Tamamlama işləri gedir |  |




PP zavodu/MŞ və ÜT: Yaş PP bölməsi / Polimerləşdirmə qurğusu.
Avadanlığın quraşdırılması və sazlanması davam edir




PP zavodu/MŞ və ÜT: Quru PP bölməsi / Poroşok silosu.
Avadanlığın və nasosların sazlanması davam edir



PP zavodu/MŞ və ÜT: Homogenləşdirmə/Qarışdırma silosu.
Nasosların və avadanlığın sazlanması və boruların vahid xətt üzrə mərkəzləşdirilməsi davam edir. NÖC quraşdırılması başlamışdır

| İyun | İyul ərzində irəliləyiş | İyul |
|---|---|---|
|  | PP zavodu/MŞ və ÜT: Xam su saxlama çəni. Boruların quraşdırılması davam edir |  |
|  | PP zavodu/MŞ və ÜT: Mineralsızlaşdırılmış su saxlama çəni. Çənin rənglənməsi gedir |  |
|  | PP/U&O: Isobutane Sphere. Dike wall welding ongoing. Pipe installation started |  |
|  | PP zavodu/MŞ və ÜT: Sferik izobutan çəni. Torpaq bənddə qaynaq işləri davam edir. Boruların quraşdırılması başlamışdır |  |

| İyun | İyul ərzində irəliləyiş | İyul |
|---|---|---|
|  | PP zavodu/MŞ və ÜT: Birləşdirici boru estakadaları. Boruların quraşdırılması davam edir. Kabellərin çəkilişi davam edir |  |



PP zavodu/MŞ və ÜT: Boru şpalları.
Boruların və kabel tavalarının quraşdırılması davam edir. Kabellərin çəkilişi davam edir

| İyun | İyul ərzində irəliləyiş | İyul |
|---|---|---|
|  | Azot aqreqatı. Avadanlığın quraşdırılması başlamışdır |  |
|  | Anbar. Metal sütunların quraşdırılması başa çatmışdır. Fermaların quraşdırılması başlamışdır. Torpaq doldurma işləri başa çatmışdır. Ağır yükə dözümlü döşəmə qurma işləri davam edir. Klapanların yerləşdiyi binada dəmir-beton işləri başa çatmışdır |  |



Yollar.
Cənub və qərb istiqamətində gedən yolların tikintisi başlamışdır

# Təcrübəçilərin uğurlu səyahəti başlayır



İyulun 3-də təqribən min ərizəçinin arasından seçilmiş təcrübəçilər şirkətin fəaliyyəti və qarşıdakı 2 ay ərzində işləyəcəkləri mühitlə daha yaxından tanış olmaq məqsədi ilə təşkil edilmiş giriş mühazirəsində iştirak etmək üçün “SOCAR Polymer” şirkətinin Bakı ofisində toplaşdılar.

Təlim və inkişaf (Tİ) şöbəsinin mütəxəssisi Nərgiz Səlimova və Tİ koordinatoru Aylar Mustafayeva giriş təqdimatları ilə çıxış etdilər, sonra isə təcrübəçilər “SOCAR Polymer”lə yay təcrübəsi haqqında əmək müqaviləsi imzaladılar. STTƏMM müşaviri Rəşad İbrahimov təcrübəçiləri həm ofisdə, həm də ümumən sahədə tətbiq olunan təhlükəsizlik texnikası qaydalarının müxtəlif aspektləri barədə məlumatlandırdı. O, qəza hallarında davranış qaydaları barədə məlumat verərək iştirakçılara yanğın qəza çıxışlarının və yanğınsöndürmə balonlarının yerini göstərdi və ilk tibbi yardım personalının siyahısı ilə tanış etdi.

Təcrübəçilərin həyəcanını aradan qaldırmaq və bir-biri ilə tanış etmək üçün onlara oyun xarakterli xüsusi sorğu vərəqləri paylandı ki, həmin vərəqələrdə onlar bəyəndikləri və bəyənmədikləri məqamlar, hobbiləri, istedadları və s. barədə qeydlər etməli idilər. Oyun başa çatdıqda kadrlar şöbəsindən olan həmkarlarımız emosional baxımdan artıq dəyişmiş və yenicə kollektiv ruhu qazanmış bir qrup





## Təhsil Bazası




gənclə üz-üzə idilər. Tədbirin sonunda təcrübəçilər müvafiq şöbələrə yola salınaraq onların birbaşa rəhbərlərinə və həmkarlarına həvalə edildilər.

Şirkətlə yeni tanış olmuş təcrübəçilər barədə təsəvvür yaratmaq üçün seçilmiş namizədlərə dair bəzi statistik aspektlərə nəzər salmaq yerinə düşər. "SOCAR Polymer" hamı üçün bərabər imkanlar yaratmaq prinsipinə sadiq qalaraq müraciət ərizələrini əlillik dərəcəsindən, cinsindən, etnik və ya dini mənsubiyyətindən asılı olmayaraq cəmiyyətin bütün təbəqələrinə mənsub olan şəxslərdən qəbul edir. Buna baxmayaraq, statistik tədqiqatlar göstərdi ki, "SOCAR Polymer"in təklif etdiyi təcrübə proqramında iştirak etməyə daha çox maraq göstərən və seçim meyarlarına daha çox cavab verənlər kişi namizədlər idi. Seçimi uğurla keçən ərizəçilərin sayı baxımından xüsusi yer tutan Bakı Ali Neft Məktəbi və Bakı Mühəndislik Universiteti də daxil olmaqla, 13 müxtəlif ali təhsil müəssisəsindən müraciət edənlərin arasında qızlar yalnız 14,3% təşkil edirdi. Təcrübəçilərimizin əksəriyyətini Azərbaycanda bakalavriat



pilləsi çərçivəsində ingilis dilində təhsil alan tələbələr təşkil edir. Bu ilin yay təcrübə proqramı təcrübəçilərin 29%-i üçün ilk belə təcrübə idi, digər 52%-i isə daha əvvəl də peşəkar inkişaf məqsədi ilə təcrübə proqramlarında iştirak etmişdir. Belə ki, təcrübəçilərdən biri artıq 8-ci dəfədir belə praktikada iştirak edir.
Biz onların hamısına uğurlu peşəkar inkişaf və nailiyyətlər arzu edirik!

## Əvvəlki illərin praktika təcrübəsi




### Təcrübəçilərin təhsil aldıqları ali təhsil müəssisələrindəki tədris dili




### Təcrübəçilərin təmsil etdikləri ali təhsil müəssisələri



# Təlim və təcrübə mükəmməlliyə aparan yoldur

SOCAR Polymer şirkəti öz personalının peşəkarlıq səviyyəsinin artırılması üçün əlindən gələni edir və lazım gəldikdə maliyyə dəstəyini belə əsirgəmir. Həmkarlarımızın bir çoxu müvafiq təlim kurslarında iştirak edir. Bu gün biz iki gənc həmkarımızın bu istiqamətdə əldə etdikləri nailiyyətlərdən danışacağıq. Müşfiq Hacıyev və Aqil Rəhimov CFA attestasiyasından keçib sertifikatlı maliyyə təhlilçiləri olmaq üçün mühasibat və maliyyə kurslarında məşğul olurlar.

CFA proqramı çərçivəsində oxumaq ABŞ-da fəaliyyət göstərən CFA İnstitutu (əvvəllər "İnvestisiyaların idarə olunması və tədqiq edilməsi assosiasiyası" və ya AIMR adlandırılırdı) tərəfindən investisiya və maliyyə mütəxəssislərinə təklif olunur. Bu proqram investisiyaların idarə olunması, maliyyə təhlili, birjalar, istiqrazlar və törəmə qiymətli kağızlarla bağlı geniş çeşidli mövzuları əhatə edir və maliyyənin digər sahələrində ümumi biliklər verir.

Proqramı uğurla başa vurmuş və digər peşəkar tələblərə cavab verən namizədə "CFA Etimadnaməsi" verilir və o, beynəlxalq CFA İnstitutunun peşəkar sertifikatına sahib olan maliyyə təhlilçisi adını qazanır. 2016-cı ilin iyun ayına olan vəziyyətə görə dünyada təqribən 132000 belə sertifikatlı mütəxəssis var. CFA Etimadnaməsini əldə etmək orta hesabla 4 il çəkir. CFA İnstitutunun məlumatına əsasən, bu proqram çərçivəsində oxumağa başlayan hər beş nəfərdən sadəcə biri CFA Etimadnaməsini əldə etməyə müyəssər olur. Tələblərə cavab verən namizədin 4 il (48 ay) müvafiq iş təcrübəsi olmalıdır (və ya CFA İnstitutunun məqbul hesab etdiyi təhsil və iş təcrübəsi kombinasiyası); CFA tədris kursunu mənimsəyib CFA Proqramını başa vurmuş və üç 6 saatlıq imtahandan keçməlidir; CFA İnstitutunun üzvü adını almalıdır və CFA İnstitutunun Etika Kodeksi və Peşəkar Davranış Standartlarına riayət etməlidir. CFA İnstitutunun sertifikatını almış şəxslərin dünya arenasında əsas işə götürənləri JP Morgan, UBS, RBC, Bank of America və Wells Fargo təşkilatlarıdır.

Müşfiq Hacıyev və Aqil Rəhimov 3 iyun 2017-ci il tarixində CFA I Səviyyə imtahanında iştirak etmiş və 25 iyul 2017-ci il tarixində həmin imtahanı birinci cəhddən keçdikləri barədə xəbər almışlar. II və III-cü Səviyyə imtahanları ildə yalnız bir dəfə iyunun əvvəllərində keçirilir.

## **Müşfiq Hacıyev** - Daxili audit mütəxəssisi



Mən 2015-ci ilin yanvar ayından SOCAR Polymer şirkətində Daxili auditorun köməkçisi vəzifəsində işləyirəm. Bura Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasından məzun olduqdan sonra mənim ilk iş yerimdir. Magistr dərəcəsi əldə etmək üçün 2016-cı ildən Azərbaycan Dövlət İqtisad Universitetində təhsilimi davam etdirirəm. Akademik biliklərimi genişləndirmək istəyi ilə 2016-cı ilin dekabrında CFA kurslarını keçdim. CFA imtahanında iştirak etmək üçün göstərdiyim səylərə maliyyə dəstəyi verdiyinə görə mən SOCAR Polymer şirkətinə son dərəcə minnətdaram. İndi mən uzun bir yolun əvvəlindəyəm və onu uğurla başa vurmağa qərarlıyam. Məni həm də o ruhlandırır ki, mən bütün keçmiş məktəb və universitet imtahanlarımı yaxşı vermişəm. O vaxt mən universitetə qəbul imtahanlarında 700-dən 622 bal toplamışdım. Amma ən böyük ruhlandırıcı stimul Maliyyə Təhlilçisi vəzifəsinə verdiyim ərizəmin SOCAR Polymer tərəfindən qəbul edilməsi oldu və sentyabrda şöbəmin dəyişdirilməsi gözlənilir. SOCAR Polymer şirkəti istənilən mütərəqqi təşəbbüsə həqiqətən böyük dəstək verir və mən özümə göstərilən etimadı doğrultmaq üçün əlimdən gələni edirəm.

Hələ ki, işlər yaxşı gedir. Prinsip etibarı ilə mən imtahana özüm hazırlaşırdım. Qeydiyyatdan keçdikdə verilən rəsmi tədris materiallarından başqa sizə həqiqətən kömək edə bilən bir çox müstəqil imtahana hazırlıq provayderi və onlayn video mühazirələr də mövcuddur.

Ümumilikdə, CFA Etimadnaməsi öz sahibinə çox geniş karyera imkanları yaradır, daha yaxşı iş perspektivləri açır və dünyada tanınmış status verir. CFA Proqramı çərçivəsində mənimsəyəcəyim ixtisaslaşdırılmış biliklər mənim əmək göstəricilərimi yaxşılaşdırmağa kömək edə bilər və inanıram ki, bu, şirkətə öz töhfəmi verməyə imkan yaradar.

## **Aqil Rəhimov** - Kiçik Maliyyə təhlilçisi



Mən 2016-cı ilin dekabrında SOCAR Polymer şirkətinə kiçik maliyyə təhlilçisi vəzifəsinə işə qəbul oldum. Mən iqtisadiyyat üzrə bakalavr dərəcəsini 2014-cü ildə Royal Holloway University universitetində, beynəlxalq mühasibat və maliyyə üzrə magistr dərəcəsini isə 2015-ci ildə Londondakı Cass Business School tədris müəssisəsində əldə etmişəm. SOCAR Polymer gənclərin potensialına inanır və az yaxud da ümumiyyətlə iş təcrübəsi olmayan yeni məzunlara peşəkar inkişaf üçün imkanlar verir. Bura işə götürüləndə mənim PWC şirkətinin vergi və hüquq departamentində əldə etdiyim cəmi 2 ay (2013) internatura təcrübəm var idi. Odur ki, mən bir mütəxəssis kimi inkişafımı sürətləndirmək üçün imkanlar axtarmağa başladım. Bu yolda ən etibarlı və əlçatan üsul və vasitələrdən biri də təlim keçməkdir. Bu baxımdan CFA İnstitutunun təşkil etdiyi təlimlər son dərəcə məsləhətlidir.

İmtahanlara hazırlaşarkən mən həm CFA İnstitutunun təmin etdiyi rəsmi mənbələrdən, həm də Kaplan Şveserin (Kaplan Schweser) təqdim etdiyi və xüsusən faydalı hesab etdiyim yenilənmiş imtahan materialları dəstindən istifadə edirdim.

Yekun etibarı ilə belə təlimlər adama mühasibat və maliyyə sahəsində daha dərin biliklər verir və dünyada tanınan akkreditasiya təmin edir. Birbaşa peşəkar göstəricilərin inkişafı ilə yanaşı, həmin təlim kursları adama vaxtın yaxşı idarə olunması bacarıqlarını aşılayır və beyin fəaliyyətini stimullaşdırır. Bu – müəllimsiz hazırlıq kursudur, odur ki, çox şey sənin bu işdə nə dərəcədə maraqlı olduğundan, çalışqanlığından və, əlbəttə ki, iradənin gücündən asılıdır.

# SOCAR Polymer bir daha sahibkarlarla görüşdü



28 iyul 2017-ci il tarixində "SOCAR Polymer" İqtisadiyyat Nazirliyinin yerli istehsala və müəssisələr arasındakı əməkdaşlığa dəstək olaraq təşkil etdiyi və İqtisadiyyat nazirinin müavini Niyazi Səfərovun da qatıldığı tədbirdə iştirak etdi.

Bakı Biznes mərkəzində toplanmış təqribən 50 iştirakçının arasında Nazirliyin Sənaye departamentinin, İqtisadi islahatlar elmi-tədqiqat institutunun, AMEA-nın Polimer materiallar institutunun, Sumqayıt Texnoloji Parkının, Sumqayıt Kimya Sənaye Parkının və təqribən 17 özəl sənaye şirkətinin nümayəndələri var idi. Həmin şirkətlər elektrik mallarının, kompozit panellərin, qapı və pəncərə profillərinin, qablaşdırma materiallarının, çantaların, konteyner qabların, polietilen lövhə və örtüklərin, plyonkaların, laminat materialların, kopolimer divar rənglərinin və s. malların istehsalı və ya satışı sahəsində fəaliyyət göstərir. Onların nümayəndələrinin arasında şirkət təsisçiləri, direktorlar, direktor müavinləri, maliyyə direktorları, satış menecerləri, hüquqşünaslar, logistika, biznesin inkişafı və MTT departamentlərinin rəhbərləri də var idi. Bütün nümayəndələr şirkətimizin baş direktoru Fərid Cəfərovun "SOCAR Polymer" haqqında təqdimatını diqqətlə dinlədilər və logistika vəsaitlərinin əhəmiyyətli dərəcədə qənaət edilməsi, daha sürətli MTT, daha əlverişli qiymətlər və daha böyük gəlir əldə etmək baxımından ciddi üstünlüklər vəd edən məhsullarımızda maraqlı olduqlarını ifadə etdilər.

"SOCAR Polymer" şirkətini eləcə də Maliyyə direktoru Fuad Əhmədov və Böyük maliyyə təhlilçisi Babək Beydullayev də təmsil edirdi. Tədbirdə iştirakımızın məqsədi – istehsalda polimerləri xammal kimi istifadə edən şirkətlərlə əməkdaşlıq imkanlarını müzakirə etmək idi.

Özəl sektor bu tədbirdə Met-Ak MMC, Fostanpak MMC, İnterplast-A MMC, Azlitbalkan BM MMC, Çıraq İnşaat MMC, EL-Plastik MMC, Fin-Plast İnterneşnl MMC, Klaus-Plast MMC, Muradlı-M MMC, ProMetal MMC, Vəliyev MMC, Gök-Nur Bakı MMC, Sob-San MMC, Fab Boya və Kimya sənayesi MMC və A-Plastik şirkətləri ilə təmsil olunurdu.



# Papr Watch – polietilendən düzəldilmiş ilk saat

Almaniyanın Berlin şəhərində yerləşən "Paprcuts Gang" şirkəti kağızdan nadir əşyalar istehsal edir. Şirkət bu yaxınlarda vaxtı ölçmək üçün nisbətən ucuz və eyni zamanda qeyri-adi "Papr Watch" adlı cihaz hazırlamışdır. Cihaz qolbağa oxşayır və elektronika üçün kifayət qədər qeyri-ənənəvi materialdan – polietilendən, daha dəqiq desək, polietilenin "Tyvek" adlı dayanıqlı yarımnövündən hazırlanmışdır. Bu material şirkətə müxtəlif çeşiddə fərqli saat dizaynları hazırlamağa imkan vermişdir. Satışların əvvəlində, hər bir zövqə və istənilən paltar tərzinə uyğun 29 fərqli variant mövcud olacaq.




100% yüksəksıxlıqlı polietilendən hazırlanan və olduqca davamlı olan bu saat "DuPont" şirkəti tərəfindən hazırlanmışdır. Yüngül və cızıqlara, çatlamağa, solmağa davamlı və su keçirməyən olduğundan, duş qəbul etməzdən və ya hovuzda üzməzdən əvvəl onu çıxarmağa ehtiyac yoxdur. Onu paltaryuyan maşında da yumaq olur. Bu saatları "ağıllı" saatlarla (smartwatch) müqayisə etməyin. Hələ ki, "Papr Watch" vaxtı yalnız köhnə dəbli LCD ekranda göstərə bilir, lakin onun batareyası təxminən iki il əvəzlənmədən işləyəcəkdir.
"Papr Watch" təxminən 28 avroya sifariş verilə bilər. Satışlara 2017-ci ilin avqust ayında başlamaq planlaşdırılır.





www.socarpolymer.az

AZƏRBAYCANIN
NEFT-KIMYA SƏNAYESINDƏ
YENI ÜFÜQLƏR AÇIRIQ

SOCAR
POLYMER